**QƏDİM RUFULLAYEV**
**filologiya üzrə fəlsəfə doktoru**
**Lənkəran Dövlət Universiteti**
**H.Əliyev 21**
**qedim73@mail.ru**

# "DASTANİ - ƏHMƏD HƏRAMİ" POEMASINDA DASTAN MOTİVLƏRİ

**Xülasə**

"Dastani-Əhməd Hərami" poeması Azərbaycan ədəbiyyatı tarixində ilk anadilli epik əsərdir. Bu əsərin müəllifi məlum deyildir. Ancaq əsərin kompozisiyası və süjetindən aydın olur ki, müəllif xalq yaradıcılığına bağlı bir sənətkar olmuşdur. Poemanın ayrı-ayrı məclislər şəklində yazılması onun dastan yaradıcılığı ilə əlaqəsindən xəbər verir. Aydındır ki, dastan yaradıcılığı aşıq ədəbiyyatına aiddir. Dastanlar daha çox el şənliklərində aşıqlar tərəfindən düzüb-qoşulmuşdur. Adətən dinləyicilər intizarda qalsın deyə aşıqlar dastan söyləyərkən əhvalatları yarımçıq qoyaraq bir məclisdən digərinə keçərdilər. Sözügedən poemada da bu ənənə qorunmuşdur. Poemada xeyirlə şərin mübarizəsi də bu əsəri dastanlara yaxınlaşdırır. Əsərdəki Güləndam obrazı xeyiri, Əhməd Hərami isə şəri ifadə edir. "Dastani-Əhməd Hərami" poemasında əsas qəhrəman dastanlarda olduğu kimi xalqı təmsil edir. O, düşdüyü çətin vəziyyətlərdə gördüyü yuxulara etibar edir, əhval-ruhiyyəsini lirik parçalarla ifadə edir. Bütün bu məsələlər xalq dastanları üçün xarakterik cəhətlərdir. Bu onu göstərir ki, "Dastani-Əhməd Hərami" poeması xalq yaradıcılığının təsiri ilə yaradılmışdır.

**Açar söz:** Yazılı ədəbiyyat, folklor, dastan, obraz, ənənə.

Şifahi xalq ədəbiyyatı insan cəmiyyətinin ilk yarandığı dövrdən formalaşaraq uzun bir inkişaf yolu keçmişdir. Bu ədəbiyyat zaman keçdikcə yeni-yeni məziyyətlər qazanmaqla bərabər, özünün yazılı variantı üçün də mühüm ədəbi mənbə rolunu oynamışdır. Qədim dövr Azərbaycan ədəbiyyatını yaradan sənətkarların əsərlərində xalq yaradıcılığı elementlərinin bolluğu bizi bu qənaətə gəlməyə sövq edir. Təkcə, N.Gəncəvi yaradıcılığına müraciət etsək, görərik ki, onun "Xəmsə"sinə daxil olan poemalarını xalq həyatından götürülmüş neçə-neçə nağıl və dastanlar bəzəyir.

Buradan görünür ki, qədim dövrün sənətkarları əsərlərinin bədii gücünü artırmaq üçün el ədəbiyyatının aktual mövzularına müraciət edirmişlər. Onların qələmindən çıxan irihəcmli əsərlər zamanın tələbi ilə fars dilində yazılmasına baxmayaraq, məzmun və forma, eləcə də daşıdıqları ideya hesabına daha çox milli mahiyyət daşıyırdı. Bu dövrdə araya-ərsəyə gələn və ən çox oxucu kütləsinin marağına səbəb olan əsərlər nağıl və dastan motivləri əsasında yazılan poemalar sayılırdı. Yazılı ədəbiyyatda bu ənənə orta əsrlərdə də davam etmişdir. Əgər bu vaxta qədər yaranan dastan xarakterli əsərlər, əsasən, fars dilində qələmə alınırdısa, bundan sonra bu, anadilli nümunələrlə diqqəti çəkməyə başlayır. "Dastani-Əhməd Hərami", "Dəhnamə", "Bəxtiyarnamə", "Şəhriyar dastanı" kimi əsərlər buna misaldır.

XIII əsrdən başlayaraq ana dilində yazılan epik məsnəvilər, şübhəsiz ki, şifahi xalq ədəbiyyatının, xüsusilə dastan yaradıcılığının təsiri ilə qələmə alınırdı. Dastan yaradıcılığı aşıq poeziyasının ən böyük janrı olduğunu nəzərə alsaq, o zamankı aşıq məktəblərinin yazılı ədəbiyyatın inkişafındakı rolunu nəzərə almamaq mümkün deyildir. Təsadüfi deyil ki, XIII-XIV əsrlərdə Anadolu və Şirvan aşıq məktəbi öz inkişafının intibah dövrünü yaşayırdı. [6, 84]

1277-ci ildə türk hökmdarının əsərlərin bundan sonra ana dilində yazılması ilə bağlı qəti qərarı,[5; 28] təkcə o zamankı türkiyə hüdudlarında deyil, yaxın bölgələrdə də az təsirə məruz qalmamış, türk-ana dilində, dastançılıq ənənəsi fonunda yeni-yeni əsərlərin yaranmasına rəvac vermişdir. Yuxarıda adları çəkilən əsərlərin məhz ana dilində yazılmasında əsas həvəsləndirici amillərdən biri də sözügedən qərar olmuşdur.

Orta əsrlərdə nağıl və dastan mötivləri və dövrün tələbləri əsasında qələmə alınan ilk əsər "Dastani-Əhməd Hərami" poemasıdır. Bu əsər həm də ana dilində qələmə alınan ilk məsnəvidir. Müəllifi məlum olmayan bu məsnəvinin əruz vəznində və klassik poemaların kompozisiyası fonunda ərsəyə gəlməsi sözsüzdür.

Burada vurğulanır ki, Krımdan olan Əhməd Hərami ətrafına topladığı oğruların başçısıdır. Bağdad sultanının zəngin var-dövləti haqqında yayılan söz-söhbətləri eşitcək onu ələ keçirmək məqsədilə dəstəsi ilə Bağdada gəlir. Doqquz yaraqlı ilə saraya daxil olan Əhməd Hərami arzuolunmaz vəziyyətə düşür. Dostları şah qızı Güləndam tərəfindən məhv edilir, özü isə yaralı halda aradan çıxa bilir. Bütün bu uğursuzluqları qəbul etməyən Əhməd Hərami onun baiskarı olan Güləndamdan qisas almaq hissi ilə alışıb yanır. Bu məqsədlə qıza elçi göndərir və onunla ailə qurur. Öz vətəninə dönərkən, yolda Güləndamı öldürmək üçün fürsət yaranır, ancaq bir təsadüf nəticəsində Güləndam xilas ola bilir və ondan gizlənir. Bundan sonra daha da qisas hissi ilə alışıb yanan Hərami onu axtarmağa başlayır. Şiraz hakiminin oğluna ərə getməsini öyrəndikdən sonra saraya gələn Əhməd Hərami öz mürtəce əməllərinin qurbanı olur. Güləndam tərəfindən öldürülür.

"Dastani-Əhməd Hərami" poeması klassik məsnəvilərə xas olan ənənələri qorumaqla bərabər, xalq ədəbiyyatı ilə bağlı bir çox məziyyətləri də özündə daşımaqdadır. Onlardan birincisi, əsərdə aşıq ədəbiyyatının, xüsusilə onun ən böyük və geniş yayılmış janrı olan dastanın əlamətləri görünməkdədir. Belə ki, 1632 misradan ibarət olan bu yazılı ədəbiyyat nümunəsi məclislər səklində qələmə alınmışdır. Məclisdən-məclisə keçdikcə xüsusi təhkiyə üsulu burada özünü göstərir. Məsələn; birinci məclisin sonunda sarayı həramilərdən qoruyan şəxsin axtarışından, eləcə də Güləndamın bunu sirr kimi saxlamasından söhbət gedir:

Bulunmadı, bilinmədi bu müşkil,
Ki, hərgiz həll olunmadı bu müşkil.
Güləndam kimsəyə söyləmədi heç,
Bu razı xalqa söyləmədi heç. [2; 36]

Oxucu üçün maraqlı olsun deyə, poemanın bu hissəsində hadisələrin təsviri yarımçıq saxlanılır. Nəzərlər sonrakı məzlisə, doqquz yoldaşını itirən və canını bir təhər qurtarıb qaçan Əhməd Həraminin üzərinə yönləndirilir:

İkinci məclisə ağaz edəlim,
Yenə Əhməd Həramiyə gedəlim. [2; 36]

Bu ənənə, əslində, xalq dastanlarının əsas səciyyəvi xüsusiyyətlərindən biridir. "Aşıqlar dastanda təsvir olunan bir hadisədən başqa bir hadisəyə keçmək üçün maraqlı üsullardan istifadə edirlər. Çox zaman danışılan hadisə, epizod tamamlanmır, yarımçıq saxlanılır, beləliklə, dinləyici intizarda qalır." [3; 222] Məsələn, xalq dastanlarından olan "Qurbani" əsərində deyilir ki, Qurbani əmisi Mirzalı xandan əkin üçün iki öküz alır. Onlar xam olduğundan cütə yaramır, yerlərindən tərpənmirlər. Əlacsız qalan Qurbani onları buraxır, özü isə yatır. Oxucuları və ya dinləyiciləri diqqətdə saxlamaq üçün "Qurbani indi yatmaqda olsun, eşit Mirzalı xandan",- deyə Qurbani ilə bağlı əhvalat yarımçıq saxlanılır. [1; 175]

Əsərdə hadisələrin məhz nagıl və dastanlarda olduğu kimi təsvir olunması onun xalq yaradıcılığı ilə bağlılığından xəbər verir.

Əsərin xalq ədəbiyyatı ilə səsləşən məqamlarından biri də yazıçının öz müsbət qəhrəmanına olan münasibəti ilə əlaqədardır. Güləndam gözəl, ağıllı, tədbirli və fədakardır. Əsərin əvvəlində zərif bir çiçək kimi təqdim olunan Güləndam, əsərin sonuna qədər təravətini itirməyən, elin adət və ənənələri qarşısında əyilən, ona dəyər verən bir qızdır. Öz talesizliyindən daim şikayət etsə də, başqalarının taleyinə də biganə deyildir. Başqa bir səhnədə isə atasının mülkünü qoruyan əskərdir. Öz şəxsi bacarığı ilə həramiləri zərərsizləşdirir, əsl qəhrəmanlıq nümunəsi göstərir, təkəbbür və şöhrətpərəstlikdən uzaq olur. Şah sarayına oğurluğa gələn həramiləri öldürməklə şaha yaxşılıq etmiş insanı mükafat gözlədiyi halda Güləndam səsini çıxarmır, sirr olaraq saxlayır.

Beləliklə, müəllif, xalq ədəbiyyatında olan əsər qəhrəmanlarının müsbət sifətləri fonunda Güləndamın dastanını yaratmışdır. Ancaq Güləndam qadın olduğu üçün əsər onun adı ilə adlandırılmır. Görünür, müəllif öz dövrünün qayda-qanunlarından kənara çıxmayaraq əsərin adını mənfi qəhrəmanın adı ilə vermişdir. Bununla belə, bu məqam əsərin dastan ənənəsinə sadiq qalmasına xələl gətirmir. Əksinə, "poemadan görünür ki, onun müəllifi öz ruhuna, zövqünə görə xalqa yaxın bir sənətkar olmuş, ədəbi dünyagörüşü, yaradıcılığı şifahi və yazılı ədəbiyyat ənənələri əsasında təşəkkül tapmış, xalq arasında bir nağılçı və qissə oxuyan kimi tanınmışdır".[8; 145] Buradan bir daha görürük ki, müəllif xalq ədəbiyyatın bilicisi olmuş və onun əsərə gətirdiyi obraz xalq qəhrəmanların mənəvi varislərindən biridir. Hansı ki, "Kitabi-Dədə Qorqud", "Koroğlu", "Qaçaq Nəbi" və s. kimi dastanlarının qəhrəmanları da təmsil etdiyi xalqın dəyərlərinə sahib çıxaraq özünəməxsus dözüm və bacarıqları ilə xalqın arzu və istklərini, onun mübarizə əzmini və ölümsüzlüyünü ifadə edirlər.

"Dastani-Əhməd Hərami" poemasında diqqətçəkən məqamlardan biri də ata-övlad münasibətlərində qız övladının yeri və rolu məsələsidir. Xalq dastanları əsasında qələmə alınmış klassik poemalarda, xüsusilə Nizami Gəncəvinin "Leyli və Məcnun" poemasında, xalq dastanlarımızda, eləcə də "Aşıq Qərib" dastanında qızın rəyi alınmadan ərə verilməsi məsələsinə rast gəlirik. "Dastani-Əhməd Hərami" poemasında da biz bu səhnənin şahidi oluruq:

Şahənşah dedi: ey canım parası,
Ki, sənsən gözümün ağı, qarası.
Rəvamıdır bənim sözüm sıyasan,
Gərəkməz ol əri bana deyəsən.
Səni bu yigidə kəbin edəm bən,
Yüzynü görə duram dəmbədəm bən. [2; 51]

Göründüyü kimi, sultan öz qızını rəyini qəbul etmədən onu ərə vermək qərarına gəlir. Güləndam başına gələcək faciələri qabaqcadan gördüyü üçün öz dayəsinə atasının qərarına etiraz etmişdi.

Əgər atam bəni buna verirsə,
Halal olsun qanım kim öldürürsə.

Amma Güləndam atasının qarşısında qızararaq tamamilə başqa tərzdə cavab verdi:

Sizə biz qarşı söyləmək eyibdir,
Ulular bu sözü belə deyibdir.
Bizə söz söyləmək düşməz qatında,

Həmin qulluq gərəkdir həzrətində.
Nə deyəyin, ata, fərman sənindir,
Əgər dərdli isəm, dərman sənindir.[2; 52]

Göstərilən nümunələrdə milli çalarların hər üç nümunədə üst-üstə düşdüyünün şahidi oluruq. Hansı ki, bu əsərlər xalq dastanlarının ənənələri əsasında yaranmışdır.

"Dastani-Əhməd Hərami" poemasında daha bir məsələ vardır ki, o həm xalq həyatında, həm də bədii əsərlərdə aktuallığı ilə diqqəti çəkməkdir. Bu yuxugörmə və yuxuyozma ilə bağlı hadisədir. Ən qədim dövrlərdən tutmuş bu günə qədər yuxu və onunla bağlı görüşlər müxtəlif səpkidə izah olunsa da, hələki öz lazımi həllini tapmamışdır. Belə ki, qədim insanlar yuxunu mifik hadisə hesab etmiş və bir çox insanlar onun vasitəsilə vergili, xüsusi qabiliyyətə sahib olmaları ilə fərqləndirilmişlər. Bütün bu məsələlər yuxunun insan həyatındakı rolu barədə yeni fikirlərin yaranmasına daim şərait yaratmışdır. Hətta onun ruhi aləmlə əlaqəsini ortaya qoymaqla öz müşkül işlərinin həlli istiqamətdə onun gücündən istifadə etmişlər. Məsələn, yuxuda müqəddəslərin görünməsi tarixən yaxşı əlamət hesab olunmuş və insan həyatı üçün bunun çox böyük faydası anlamına gəlinmişdir. Bu məsələyə ədəbi əsərlərdə də, xüsusilə dastanlarda kifayət qədər yer ayrılmışdır. Məsələn, "Kitabi-Dədə Qorqud" dastanının "Salur Qazan evinin yağmalanması boyu"nda Salur Qazan ovda yatarkən qara qayğılı yuxu görür; şahin hücum edərək onun quşunu əlindən alır, evinin üstündə ildırım çaxır, quduz qurdlar evini dəlir... Qardaşı bu yuxunun heç də ürəkaçan olmadığını bildirir. Həqiqətən, Qazan xanın eli və ailəsi dar dündə idi.

Adıçəkilən dastanda Qaraca Çobanın da yuxusu bu məqamda maraq doğurur. "Gecə yatarkən yuxuda qara qayğılı əhvalat gördü. Hövlnak ayağa durdu. Üç yerdə təpə kimi daş yığdı, ala qollu sapandını əlinə aldı. Qaraca çobanın üstünü qəflətən altı yüz kafir aldı." [4; 189]

Məhəbbət dastanlarında da yuxuya gedən əsər qəhrəmanlarına-gənclərə müqəddəslər tərəfindən buta verilməsi əhvalatlarına tez-tez rast gəlirik. Hətta yazılı ədəbiyyatı nümunələrində belə əhvalatların şahidi oluruq. N.Gəncəvinin "Xosrov və Şirin" poemasında Xosrov kəndliləri incitdiyi üçün atası tərəfindən cəzalandırılır; atı, taxtı, qulları kəndlilərə verilir, çalğıçısının dırnaqları çıxarılır. Bir müddət fikirli dolanan Xosrov yatarkən yuxu görür. Nazənin bir pəri Xosrovun yuxusuna gəlmiş və demişdir: "Dörd sevdiyin sey əlindən çıxmışsa da, dörd şeyin müjdəsini verirəm. Bunların birncisi, Şirin, ikincisi Şəbdiz atı, üçüncüsü Bərbat adlı çalğıçı, dördüncü qızıldan taxt idi. Biz "Əmir Əhməd və Məshəti" dastanında da bu məqama rast gəlirik. Burada təsvir olunur ki, "Əmir Əhməd namaz qılıb yatır, yuxuda cənnəti görür, əlində cam tutmuş bir huri Məhsətini ona buta verir. Səhərisi gün müridlərinin köməyi ilə Xərabata gedir və butasını görür, şeirləşirlər. Bundan sonra maneələr başlanır, amma bütün bunlara baxmayaraq sevgililər qovuşurlar. [7; 276-282]

"Dastani-Əhməd Hərami" poemasında da belə bir əhvalat vardır. Şiraz hökümdarının oğluna ərə gedən Güləndam indiki halı üçün nə qədər xoşbəxt idisə, onu qisas almaq məqsədi ilə daim təqib edən və bununla başqalarının da həyatına təhlükə yaradan Əhməd Hərami tərəfindən bir o qədər narahat idi. Güləndamın bu əhvalı bir gün gördüyü yuxusunda da əks olundu. Yazıçı bu səhnəni belə işıqlandırır:

Məgər düş görür ol gecə Güləndam,
O düşün heybətindən titrər əndam.
Bu idi gördügü düş ol nigarın,
Görür bir qara it gəzər kənarın.

Güləndam qorxdu, bəlinar oyanur,
Anın ciyərinə qorxu boyanur. [2; 102]

Xalq dastanlarında olduğu kimi bu əsərdə də yuxu qəhrəmana hadisələri qabaqlamaqda kömək edir. Güləndam təhlükənin olduğunu hiss edir və ehtiyatlı tədbirləri nəticəsində Əhməd Həramini zərərsizləşdirir.

Dastanların epik-lirik xarakterli olduğunu elmi mənbələr birmənalı şəkildə qəbul edir. Çünki hadisələrin təsviri ilə yanaşı qəhrəmanların düşdüyü vəziyyətə uyğun əhval-ruhiyyəsinin lirik təqdimatı dastanların səciyyəvi xüsusiyyətidir.

"Dastani-Əhməd Hərami" poemasının Azərbaycan ədəbiyyatında ilk epik-lirik xarakterli yaradıcılıq nümunəsinin olduğunu nəzərə alsaq, xalq dastanları ilə onun əlaqəsinin hansı səviyyədə olduğunu görərik.

Adıçəkilən əsərin dili də xalq danışığı və deyimləri ilə zəngindir. Poemada təsadüf olunan atalar sözləri, o cümlədən "yazılan pozulmaz", "böyüyə qarşı çıxmazlar", "məsəldir, sevəni sevmək gərəkdir", "bıçaq soquqə irdi neyləyim" və s. kimi deyimlər indi də xalq arasında işlənməkdədir. Bütün bunlar isə "Dastani-Əhməd Hərami" poemasının Azərbaycan ədəbiyyatının inkişafında mühüm ədəbi hadisə olduğunu göstərməklə bərabər, xalq yaradıcılığı ilə son dərəcədə bağlı olmasını da ifadə edir.

## Ədəbiyyat

1.Azərbaycan ədəbiyyatı inciləri. Dastanlar.Bakı:Yazıçı,1978, 571 s.
2.Dastani-Əhməd Hərami. Bakı: "Şərq-Qərb", 2004, 120.
3.Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: Maarif,1981,407 s.
4.Kitabi-Dədə Qorqud. Tofiq Hacıyevin tərtibi ilə. Bakı: Öndər, 2004, 376 s.
5.Quliyev E.Türk xalqları ədəbiyyatı.Bakı-2008, 368 s.
6.Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı, 2 cilddə, II cild. Bakı: Elm, 2006, 648 s.
7.Rufullayev Q. "Filologiya məsələləri" jurnalı, №-8, Baki, 2018,səh 276-282 s.
8.Səfərli Ə., Yusifli X., Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı. Bakı: Maarif, 1982, 385 s.

**G.Rufullayev**

**Lankaran State University**

## Epos motifs in the poem of "Dastani-Ahmed Harami"

### Summary

The poem of "Dastani-Ahmed Harami" is the first epic in the history of Azerbaijan literature. The author of this work is not known. However, the composition and plot of the work shows that the author was an artisan of folk creativity. Writing poems as separate meetings [majlis] speaks about its relationship with its epos creativity. Obviously, the epos creativity concerns the ashug literature. The epics have been told by ashugs in people festivals. Usually, the ashugs while retelling epics would have to go from one meeting to another one in order to put the audience in an anxiety. This tradition has been preserved in the poem. The struggle of good and evil in the poem also brings this work closer to the epics. The image of Gulendam expresses the good but Ahmed Harami the evil in the work. In the poem "Dastani-Ahmed

Harami", the main hero, as in the epics, represents the people. He relies on dreams he has seen in difficult situations and expresses his mood with lyrical pieces. All these issues are characteristic for folk epics. It shows that the poem of "Dastani-Ahmed Harami" has been created under the influence of folk creativity.

**Key words:** written literature, folklore, epic, image, tradition.

**Г.Руфуллаев**

**Лянкяранский государственный университет**

**Мотивы эпоса в поэме «Дастани-Ахмед Харами»**

**Резюме**

Поэма «Дастани-Ахмед Харами» - первый эпос в истории азербайджанской литературы. Автор этой работы не известен. Однако состав и сюжет произведения показывают, что автор был ремесленником народного творчества. Написание стихов в виде отдельных собраний (меджлис) говорит о его связи с его эпос творчеством. Очевидно, что творчество эпоса касается ашугской литературы. Эпосы были рассказаны ашугами на народных праздниках. Обычно, ашугам пересказывая эпос, приходилось переходить с одной встречи на другую, чтобы вызвать у зрителей беспокойство. Эта традиция была сохранена в поэме. Борьба добра и зла в поэме также приближает эту работу к эпосам. Образ Гулендама выражает добро, а Ахмед Харами - зло в работе. В поэме «Дастани-Ахмед Харами» главный герой, как и в эпосе, представляет народ. Он опирается на мечты, которые видел в трудных ситуациях, и выражает свое настроение лирическими пьесами. Все эти вопросы характерны для народных эпосов. Это показывает, что поэма «Дастани-Ахмед Харами» была создана под влиянием народного творчества.

**Ключевые слова:** Письменная литература, фольклор, сага, образ, традиция.

Redaksiyaya daxil olma tarixi: 21.06.2019
Çapa qəbul olunma tarixi: 26.07.2019
Filologiya elmləri doktoru, professor Məhərrəb Qaımli tərəfindən çapa tövsiyə olunmuşdur.